**“Expressbank” Açıq Səhmdar Cəmiyyətindən “Şans ekspressi”**
**tirajlı stimullaşdırıcı lotereyanın şərtləri**

“Lotereyalar haqqında” Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinə və “Stimullaşdırıcı lotereyaların təşkili və keçirilməsi” Qaydalarına müvafiq olaraq, keçiriləcək lotereyanın şərtləri aşağıdakı kimi müəyyən olunur.

| Sıra | Lotereya şərtlərinin adı | Şərtlər |
|---|---|---|
| **1** | **Lotereya təşkilatçısının adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi, olduğu yer və əlaqə telefonları** | “Expressbank” ASC (bundan sonra “Təşkilatçı”), VÖEN: 1500031691;<br>Bakı şəhəri, Nərimanov rayonu, Y.V.Çəmənzəminli küçəsi 134C; Əlaqə nömrəsi: (+994 012) 132<br>E-poçt ünvanı: info@expressbank.az<br>(Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən “Expressbank” ASC-yə bank fəaliyyətinin həyata keçirilməsi üçün 17 mart 2010-cu il tarixli, 06/06-590 nömrəli bank lisenziyası verilmişdir. Bank 30 dekabr 1992-ci il tarixdə 119 saylı lisenziyaların mərkəzi reyestrinə daxil edilmişdir. Lisenziya müddətsiz verilib) |
| **2** | **Lotereyanın adı və keçirilmə forması** | “Şans ekspressi” adlı elektron qaydada həyata keçiriləcək tirajlı stimullaşdırıcı lotereya (bundan sonra “Lotereya”) |
| **3** | **Lotereyanın keçirilmə müddəti** | 01 aprel 2024-cü il – 31 mart 2025-ci il (hər iki tarix daxil) |
| **4** | **Lotereyanın keçirildiyi ərazi** | Azərbaycan Respublikası |
| **5** | **Lotereyada iştirak hüququ, Lotereya biletlərinə bərabər tutulan digər məlumat daşıyıcıları və onların əldə edilməsi qaydası** | **5.1.** Lotereyanın keçirildiyi müddət ərzində həm ölkə daxilində, həm də ölkə xaricində Təşkilatçının emissiya etdiyi **VİSA** kartları ilə (bundan sonra “Kartlar”) (kartların siyahısı aşağıda göstərilib) minimum 10 AZN və ya bu məbləğin ekvivalentində **POS** (Pos-terminallar vasitəsilə edilən ödənişlər) / **E-comm** (internet üzərindən ödənilən ödənişlər) əməliyyatı (bəzi əməliyyatlar istisna olmaqla) aparan, 18 yaşına çatmış Təşkilatçının emissiya etdiyi kart sahibləri (bundan sonra İştirakçı) (bəzi şəxslər istisna olmaqla) könüllü şəkildə stimullaşdırıcı lotereyada iştirak hüququ əldə edəcəkdir.<br><br>**5.2.** İştirak hüququ qazanmış şəxs(lər) lotereyada könüllü iştirakını dayandırmaq üçün **“STOP”** yazaraq **8132** nömrəsinə qısa mesaj (SMS) göndərməklə və ya “Express24” mobil əlavəsində “deaktiv et” seçimini etməklə stimullaşdırıcı lotereyada iştirak hüququndan imtina edə bilər(lər). İştirakçının qeyd edilən qısa mesajı (SMS) göndərməməsi və ya mobil əlavədə “deaktiv et” seçimini etməməsi stimullaşdırıcı lotereyada könüllü iştiraka razılığı kimi qəbul edilir. |

expressbank

**5.3. Lotereyada iştirak edən kartların siyahısı:**
VİSA Expresso Standart,
VİSA Adsız Expresso kartları,
VİSA Expresso Gold,
VİSA Expresso Platinum,
VİSA İnfinite,
VİSA adı altında sifariş olunmuş bütün növdə olan əmək haqqı (Salary) kartları.

**5.4.** Kart vasitəsilə hər bir 10 (on) AZN və ya bu məbləğin ekvivalentində olan məbləğdə POS/E-comm üzrə ödəniş iştirakçıya Lotereyada iştirak üçün 1 (bir) şans qazandırır. VİSA Expresso Standart, VİSA Adsız Expresso, VİSA Expresso Gold və Salary (Platinum-dan daha aşağı statuslu kartlar) kartları ilə qazanılan hər bir şans 1 misli kimi (x1), VİSA Expresso Platinum və Salary (Platinum) kartları ilə qazanılan hər bir şans 2 misli kimi (x2) və VİSA İnfinite və Salary (İnfinite) kartları ilə qazanılan hər bir şans 3 misli kimi (x3) hesablanacaqdır.

*Nümunə: Müştəri VİSA Expresso Standart, VİSA Adsız Expresso, VİSA Expresso Gold və Salary (Platinum-dan daha aşağı statuslu kartlar) kartları ilə etdiyi əməliyyatlara görə ay ərzində 5 ədəd şans əldə edibsə ay sonunda oynanılan tirajda 5 ədəd şansı (x1), VİSA Expresso Platinum və Salary (Platinum) kartı ilə etdiyi əməliyyatlara görə ay ərzində 5 ədəd şans əldə edibsə ay sonunda oynanılan tirajda 10 ədəd şansı (x2) və VİSA İnfinite və Salary (İnfinite) kartı ilə etdiyi əməliyyatlara görə ay ərzində 5 ədəd şans əldə edibsə ay sonunda oynanılan tirajda 15 ədəd şansı (x3) formalaşacaqdır.*

**5.5.** 10 (on) AZN və ya bu məbləğin ekvivalentindən yuxarı ödənişlərdə olan məbləğ 10-a bölünməklə alınan rəqəm aşağı həddə yuvarlaqlaşdırılır və şans sayı hesablanır. Ödəniş məbləğləri ay sonu kumulyativ olaraq nəzərə alınmır. Müştərilərin lotereyada ümumi şans sayları limitlənməyib.

*Nümunə: Müştəri Kart vasitəsilə ay ərzində 37 AZN və 18 AZN dəyərində iki ədəd ödəniş etmişdir. Ay sonunda müştərinin lotereyada iştirakı üçün 4 ədəd şansı yaranacaqdır. (37 AZN ÷ 10 = 3.7 AZN ➜ 3 şans və 18 AZN÷ 10 = 1.8 AZN ➜ 1 şans. Ay sonunda ümumilikdə 4 şans (3+1 şans).*

**5.6.** Hər bir şans müvafiq elektron informasiya sistemində (bundan sonra “Lotereya sistemi”) xüsusi təkrar olunmayan nömrəyə sahib və bir lotereya biletinə bərabər tutulan məlumat daşıyıcısında öz əksini tapır. Lotereya iştirakçısı şans qazandıqda lotereya sistemində müvafiq sayda məlumat daşıyıcılarına sahib olur.

expressbank

| | | |
|---|---|---|
| | | **5.7.** Lotereya sisteminə daxil ediləcək təkrar olunmayan məlumat daşıyıcıları iştirakçının Bankda müştəri koduna (İD kod) bağlı olmaqla qazandığı şans sayına uyğun olaraq sıralanacaqdır. Bundan əlavə olaraq məlumat daşıyıcıda iştirakçıya aid digər məlumatlar da (konfidensiallığın qorunması şərtilə) ola bilər.<br><br>***Nümunə:***<br>*Müştəri İD kodu 1-6 rəqəmdən ibarət ola bilər.*<br>*İD Kodu 9 və ya 999999 olan lotereya iştirakçısı keçiriləcək tirajda 3 şans sayı qazanmışdır. Buna uyğun olaraq iştirakçının lotereya sisteminə daxil ediləcək məlumat daşıyıcıları 9.1, 9.2, 9.3, və ya 999999.1, 999999.2, 999999.3 şəkilində olacaqdır. Bu nümunə üzərində göstərilən müştərinin qazandığı 3 iştirak sayı təkrar olunmayan nömrəyə sahib və hər biri ayrılıqda lotereya biletinə bərabər tutulan məlumatlardır. İştirakçının qazandığı şans sayı İD koddan sonra gələn rəqəmlər ilə öz əksini tapır. Bu lotereya biletinin nömrəsi minimum 2 rəqəm 1 simvoldan başlayaraq müştərinin İD kod və qazandığı şans sayına uyğun olaraq simvol və rəqəmlərdən formalaşacaqdır.*<br><br>**5.8.** Lotereyada bütün valyutalar üzrə həm debet həm də kredit kartları iştirak edir.<br><br>**5.9.** Lotereya müddəti ərzində müştərilərə “Express24” mobil tətbiqinin “push” bildirişləri vasitəsilə ümumi əldə etdiyi şans sayları barədə məlumat göndəriləcəkdir. Lotereya iştirakçıları “Express24” mobil tətbiqində və ya bankın rəsmi saytında qazandıqları şans saylarını izləyə bilərlər. |
| 6 | **Lotereyanın oynanılması və uduşun müəyyən edilməsi qaydaları haqqında məlumat** | **6.1.** Lotereya müddəti ərzində tirajların oynanılması 4 (dörd) rüb üzrə keçiriləcəkdir. Hər rübdə ilk iki ayın yekunlarına əsasən 2 (iki) ayrıca tiraj, üçüncü ayda isə ümumi rübün yekunlarına əsasən 1 (bir) tiraj oynanılacaqdır. Lotereya iştirakçılarının rübün birinci ayında qazandıqları şans sayları birinci ayın tirajında, rübün ikinci ayında qazandıqları şans sayları ikinci ayın tirajında oynanılacaqdır. Bundan əlavə olaraq lotereya iştirakçılarının rübün üçüncü ayında qazandıqları şans sayları ilə bərabər rübün birinci və ikinci aylarında qazandıqları şans sayları ilə cəmlənərək rübün yekunlarına dair olan tirajda oynanılacaqdır. Lotereya müddəti ərzində ümumilikdə 12 (on iki) tiraj oynanılacaqdır.<br><br>*Nümunə: Müştəri rübün birinci ayında 5 şans sayı qazanmışdır və bu şans sayları birinci ayın tirajında oynanılacaqdır. Müştəri ikinci ayda qaydaya uyğun heç bir ödəniş etməmiş və şans qazanmamışdır və bununla əlaqədar olaraq ikinci ayın tirajında müştərinin lotereya sistemində heç bir şans sayı olmayacaqdır. Müştəri üçüncü ayda 7 şans sayı qazanmışdır və rübün yekunlarına dair olan tirajda müştəri 12 şans sayı (birinci ayda olan 5 şans sayı + üçüncü ayda olan 7 şans sayı) ilə çıxış edəcəkdir.* |

expressbank

| | | |
|---|---|---|
| | | **6.2.** Lotereya iştirakçılarının rüb ərzində qazandıqları şans sayları rüb sonunda sıfırlanacaqdır. Müştərilər növbəti rübdə keçiriləcək olan tirajlarda iştirak etmək üçün növbəti rüb ərzində kartlardan eyni qaydada istifadə etməklə yeni şans sayları qazanmalıdırlar.<br><br>**6.3.** Bir iştirakçı rüb ərzində keçiriləcək olan birinci və ikinci ayların tirajlarında ayrı-ayrılıqda yalnız bir uduş üzrə qalib ola bilər. Rübün birinci və ikinci aylarında qalib olan şəxs rübün sonunda rübün yekunlarına dair oynanılacaq olan tirajda iştirak hüququnu itirmir.<br><br>**6.4.** Qaliblərin seçilməsi iştirakçılar arasından təsadüfi yolla seçilən lotereya sistemi vasitəsilə həyata keçiriləcək və bankın rəsmi sosial şəbəkələri vasitəsilə canlı yayımla açıqlanacaqdır.<br><br>**6.5.** Canlı yayımda keçiriləcək olan stimullaşdırıcı lotereyada iştirak hüququ qazanan müştərilərin fiziki olaraq iştirakı nəzərdə tutulmur.<br><br>**6.6.** Uduş fondunun oynanılması əvvəlcədən elan ediləcək müvafiq tarixlərdə Bakı şəhəri, Babək prospekti 11/31 (Babək Plaza) ünvanında yerləşən Təşkilatçının ofisində həyata keçiriləcəkdir.<br><br>**6.7.** Tirajın oynanıldığı gün müəyyən edilmiş uduş oynanılmazdan əvvəl uduşda olan mükafatın adı elan ediləcək və lotereya sistemi qarışdırıldıqdan sonra təsadüfi nömrə çıxarılacaqdır və çıxan həmin nömrənin sahibi elan edilmiş uduşun qalibi hesab olunacaqdır. Uduşlu lotereya biletinə bərabər tutulan məlumat daşıyıcıları kompüterin monitorunda göstərilir və bu barədə tirajın uduş fondunun oynanılması nəticələri haqqında aktda tiraj komissiyası tərəfindən müvafiq qeydiyyat aparılır. Daha sonra yenidən uduş fonduna daxil edilmiş uduşlardan hər biri elan ediləcək və lotereya sistemi qarışdırılaraq yeni təsadüfi nömrə çıxarılacaqdır. Uduş fonduna daxil edilmiş bütün uduşlar bitənədək oyun bu qaydada davam etdiriləcəkdir. Lotereya müddəti ərzində rüblər üzrə keçiriləcək olan bütün tirajlar bu qaydada aparılacaqdır.<br><br>**6.8.** Qaliblərin məlumatları (konfidensiallığın qorunması şərtilə) Bankın rəsmi sosial şəbəkə hesablarında canlı yayımda görünəcəkdir.<br><br>**6.9.** Rüb ərzində birinci ay tamamlandıqdan sonra növbəti ayın 10-u tarixinədək iştirakçıların lotereya şərtlərinə uyğun olaraq həmin ayda qazandıqları şans sayları müəyyən edilərək lotereya sisteminə daxil ediləcək və növbəti ayın 10-dan sonra 5 iş günü ərzində birinci ayın tirajı oynanılacaqdır. Rübün ikinci ayının tirajı, rübün yekunlarına dair oynanılacaq olan tiraj və digər rüblərdə olan bütün tirajların açıqlanması bu qaydada keçiriləcəkdir. |

| | | |
|---|---|---|
| | | **6.10.** Lotereya müddəti ərzində keçiriləcək olan 12 (on iki) tirajın oynanılma tarixləri aşağıdakı şəkildədir:<br>- Lotereyanın 1-ci rübü üzrə keçiriləcək olan 3 (üç) tirajın oynanılma tarixləri:<br>1-ci tiraj – 15.05.2024<br>2-ci tiraj – 21.06.2024<br>3-cü tiraj – 16.07.2024<br><br>- Lotereyanın 2-ci rübü üzrə keçiriləcək olan 3 (üç) tirajın oynanılma tarixləri:<br>1-ci tiraj – 15.08.2024<br>2-ci tiraj – 17.09.2024<br>3-cü tiraj – 15.10.2024<br><br>- Lotereyanın 3-cü rübü üzrə keçiriləcək olan 3 (üç) tirajın oynanılma tarixləri:<br>1-ci tiraj – 15.11.2024<br>2-ci tiraj – 17.12.2024<br>3-cü tiraj – 15.01.2025<br><br>- Lotereyanın 4-cü rübü üzrə keçiriləcək olan 3 (üç) tirajın oynanılma tarixləri:<br>1-ci tiraj – 17.02.2025<br>2-ci tiraj – 14.03.2025<br>3-cü tiraj – 15.04.2025<br><br>**6.11.** Bütün tirajların keçiriləcəyi vaxt barədə iştirakçılara əvvəlcədən hər bir tirajın keçirilmə tarixinə ən azı 10 (on) gün qalmış “Express24” mobil tətbiqinin “push” bildirişləri vasitəsilə əlavə məlumat göndəriləcək eləcə də “Expressbank” ASC-nin rəsmi internet səhifəsində elan ediləcəkdir. |
| **7** | **Lotereyanın uduş fondu haqqında məlumat** | **7.1.** “Şans ekspressi” adlı stimullaşdırıcı lotereyanın uduş fondu dörd rüb ərzində keçiriləcək 12 (on iki) tirajla qaliblərə təqdim olunacaqdır. Ümumi uduş fondu aşağıdakı cədvəldə göstərilmişdir: |

| Uduşların siyahısı | Hər ay sonunda oynanılan tirajda verilən uduşlar | Hər rüb sonunda oynanılan tirajda verilən uduşlar | İllik formalaşan uduşlar |
|---|---|---|---|
| | Say | Say | Say |
| Volkswagen İD4 Pure+ | - | 1 | 4 |
| Apple iPhone 15 128 GB | 3 | - | 24 |
| Apple Watch 9 45 mm | 5 | - | 40 |
| Apple AirPods 3 | 10 | - | 80 |
| **Cəmi:** | **18** | **1** | **148** |

Rübün birinci ayın tirajında təqdim olunan uduşlar:
- 3 nəfər – İphone 15
- 5 nəfər – Apple Watch 9 45 mm
- 10 nəfər – Apple AirPods

**7.2.** Rübün ikinci ayın tirajında təqdim olunan uduşlar:
- Birinci ayın tirajında göstərilən qaydada

**7.3.** Rübün üçüncü ayında rübün yekunlarına dair olan tirajda təqdim olunan uduşlar:
- 1 nəfər – Volkswagen İD4 Pure+

**7.4.** Lotereya müddəti ərzində digər rüblərdə də keçiriləcək tirajlarda eyni qaydada uduşlar qaliblərə təqdim olunacaqdır.

**7.5.** Lotereya müddəti ərzində ümumilikdə qaliblərə təqdim olunacaq uduşlar:
- 4 nəfər – Volkswagen İD4 Pure+
- 24 nəfər – İphone 15
- 40 nəfər – Apple Watch 9 45 mm
- 80 nəfər – Apple AirPods

| | | |
|---|---|---|
| | | **7.6.** Lotereyanın üçüncü və dördüncü rübləri üzrə müvafiq olaraq birinci və ikinci rüblərində qaliblərə təqdim ediləcək hədiyyələr aşağıda qeyd edilən şəkildə dəyişdiriləcəkdir:<br><br>- İki rüb ərzində qaliblərə təqdim olunacaq olan 12 ədəd iPhone 15 128 GB modeli → iPhone 16 128 GB modelinə dəyişdirilir;<br>- İki rüb ərzində qaliblərə təqdim olunacaq olan 20 ədəd Apple Watch 9 45 mm modeli → Apple Watch Series 10 GPS, 46 mm modelinə dəyişdirilir;<br>- İki rüb ərzində qaliblərə təqdim olunacaq olan 40 ədəd Apple AirPods 3 modeli → Apple AirPods 4 with ANC (Active Noise Cancellation) modelinə dəyişdirilir.<br><br>**7.7.** Təqdim olunacaq uduşlar haqqında ümumi məlumatlar.<br><br>**Volkswagen İD4 Pure+** :<br>Rəng – 2 ədəd ağ, 2 ədəd boz<br>Buraxılış ili – 2023<br>Quruluş – 5 qapı\ 5yer SUV<br>Güc növü – Elektrik 204 a\g<br>Elektrik məsafəsi (km) – 600<br>Maksimal sürət km\saat – 160<br>Batarea tutumu (kwh) – 84.8<br>Mərkəzi idarəetmə LCD ekran – 12 düyüm<br><br>**İphone 15:**<br>Rəng – Qara (black)<br>Ekran – 6.1"<br>Daxili yaddaş – 128 GB<br>Operativ yaddaş – 6 GB<br>Əsas kamera – 48 MP + 12 MP<br>Ön kamera – 12 MP<br>Prosessor tezliyi – 3.46 GHz<br>Əməliyyat sistemin versiyası – iOS 17<br><br>**Apple Watch 9 45 mm:**<br>Rəng – Qara (midnight)<br>Ekranın növü – OLED |

| | | |
|---|---|---|
| | | Görüntü imkanı – 396 × 484<br>Prosessor – Apple S9 Sip<br>Əməliyyat sistemi – WatchOS 10<br>Displeyin diaqonalı – 1.9"<br>İşləmə müddəti – 18 saatadək<br>Daxili yaddaş – 64 GB<br><br>**Apple AirPods 3:**<br>Rəng – Ağ<br>Qulaqlığın növü – İçlik<br>Maksimal işləmə müddəti – 30 saatadək<br>Enerji yığma müddəti – 2.5 saatadək<br>Batareyanın həcmi – 398 mAh<br>Müqavimət – 16 Om<br><br>**7.8.** Lotereyanın üçüncü və dördüncü rübündə yeni təqdim olunacaq uduşlar haqqında ümumi məlumatlar.<br><br>**İphone 16:**<br>Rəng – Qara (black)<br>Ekran – 6.1"<br>Daxili yaddaş – 128 GB<br>Operativ yaddaş – 6 GB<br>Əsas kamera – 48 MP + 12 MP<br>Ön kamera – 12 MP<br>Prosessorun növü – Apple A18<br>Əməliyyat sistemin versiyası – iOS 18<br><br>**Apple Watch Series 10 46 mm:**<br>Rəng – Black<br>Ekranın növü – LTPO3 OLED<br>Görüntü imkanı – 416 × 496<br>Prosessor – Apple S10 SiP<br>Əməliyyat sistemi – WatchOS 11<br>Displeyin diaqonalı – 1.96" |

| | | |
|---|---|---|
| | | İşləmə müddəti – 36 saatadək<br>Daxili yaddaş – 64 GB<br><br>**Apple AirPods 4:**<br>Rəng – Ağ<br>Qulaqlığın növü – İçlik<br>Maksimal işləmə müddəti – 30 saatadək<br>Enerji yığma müddəti – 2 saatadək<br>Batareyanın həcmi – 215 mAh<br>Qoşulma növü – TWS (tam simsiz) |
| **8** | **Uduşların verilməsi (ödənilməsi) müddəti və qaydası haqqında məlumat** | **8.1.** Uduş fondu oynanıldığı tarixdən 5 (beş) iş günü ərzində Təşkilatçı kütləvi informasiya vasitələrində uduş fondu və uduşa düşmüş lotereya biletlərinin nömrələri və (və ya) seriyaları barədə məlumatı kütləvi informasiya vasitələrində elan edəcəkdir. Bundan əlavə qaliblərə SMS və ya Express24 mobil tətbiqinin “push” bildirişləri vasitəsilə məlumat göndəriləcək və Qaliblərlə Bankın Məlumat Mərkəzi şöbəsi tərəfindən əlaqə yaradılacaqdır.<br><br>**8.2.** Uduş fondu oynanıldığı tarixdən etibarən 7 (yeddi) iş günündən sonra və 90 (doxsan) iş günü ərzində Qalib olan şəxslər Təşkilatçıya müraciət edə bilərlər. Qaliblə həmin müddət əlaqə saxlamaq mümkün olmadıqda, qalib Banka müraciət etmədikdə və ya uduşu qəbul etməkdən imtina etdikdə, uduş tələb olunmamış hesab ediləcək və Bankın mülkiyyətinə keçəcəkdir.<br><br>**8.3.** Uduş fondu oynanıldıqdan sonra Bank tərəfindən qalib şəxslərə Banka müraciət etdiyi tarixdən 30 (otuz) iş günü ərzində uduşlar onların şəxsiyyətini təsdiq edən sənədlər (şəxsiyyət vəsiqəsi) əsasında təqdim ediləcəkdir.<br><br>**8.4.** Təşkilatçı qaliblərin məlumatlarını (konfidensiallığın qorunması şərtilə) və hədiyyənin təqdim edilmə prosesində çəkilmiş foto/video görüntülərini qaliblərin yazılı razılığı ilə Bankın rəsmi sosial media hesablarında, KİV-də yayımlaya bilər. Qalib tərəfindən uduşların alınması hüququ üçüncü şəxslərə güzəşt edilə bilməz. |
| **9** | **Digər şərtlər** | **9.1.** Lotereya şərtləri Təşkilatçının rəsmi saytında açıqlanır və məcburi qüvvəyə malikdir.<br><br>**9.2.** İştirakçı tərəfindən Lotereya şərtlərinin pozulması, yerinə yetirilməməsi və ya imtina edilməsi İştirakçının Lotereyada iştirakından imtina kimi qəbul edilir. |

| | | |
|---|---|---|
| | | **9.3.** Lotereyanın təşkili və keçirilməsi ilə əlaqədar digər şərtlər Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.<br><br>**9.4.** Lotereyanın keçirilməsi üçün istifadə edilən Lotereya sisteminə nəzarəti həyata keçirmək üçün İqtisadiyyat Nazirliyinə baxış rejimində birbaşa çıxışı təmin ediləcək. |
| **10** | **Qeyri-pul uduşlarının əvəzlənməsi** | **10.1.** Lotereyanın şərtləri ilə lotereyada oynanılan uduşların dəyərinin pul ekvivalenti şəklində ödənilməsi nəzərdə tutulmur. |
| **11** | **Lotereyada iştirak üzrə istisnalar** | **11.1. Lotereyada iştirak etməyən əməliyyatlar:**<br>Kartdan karta köçürmələr üzrə– 4829, 6536, 6537,6538,6532,6533<br>Dövlət ödənişləri üzrə – 9211,9222,9223,9311,9399,9402,9405,8398,8651,8661<br>Nəqliyyat ödənişləri üzrə – 4119,4121,4131,4214,4215,4225,4411,4457,4468,4789,4011,4111,4112,4784<br>Kommunal xidmətlər üzrə – 4900<br>Rabitə/İnternet/Kabel/peyk ödənişləri üzrə – 4899,4814,4816,4813,7399<br>Elektron pul qabı üzrə(Quasi Cash) – 6540,6012,6050,6051,6211<br>Mərc oyunları üzrə – 7995,7801,7800,7802,9406,9754<br>ATM/POS Cash nağdlaşdırma üzrə – 6010,6011<br>Asan Xidmət üzrə – 1100 – bu MCC kod altında icra olunan əməliyyatlar və reversal əməliyyatlar (ləğv olunmuş əməliyyatlar).<br>- Azərbaycan Respublikasının “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” qanunun tələblərinə əsasən şübhəli hesab edilən əməliyyatlar.<br><br>**11.2. Lotereyada iştirak etməyən kartlar:**<br>- Biznes (Business) kartlar<br>- Expresso adı altında sifariş edilməyən kartlar (İnfinite və Salary kartlar istisna olmaqla)<br><br>**11.3. Lotereyada iştirak etməyən şəxslər:**<br>- Lotereyanın keçirildiyi müddət ərzində “Expressbank” ASC-nin əməkdaşı olan şəxslər<br>- 18 yaşına çatmamış şəxslər<br>- Lotereyanın keçirilməsinə bu və ya digər formada cəlb edilən şəxslər<br>- Lotereya üzrə tiraj komissiyasının üzvləri<br>- Lotereyada iştirakdan könüllü şəkildə imtina edən şəxslər |

| | | |
|---|---|---|
| | | Yuxarıda qeyd edilən şəxslər Lotereyada iştirak edərsə, uduş fondu üzrə heç bir uduş əldə edə bilməyəcək. |
| **12** | **Tiraj komissiyasının yaradılması** | **12.1.** Lotereyanın uduş fondunun qanunvericiliyə uyğun oynanılmasına nəzarəti həyata keçirmək məqsədilə ilə qanunvericilikdə nəzərdə tutulmuş qaydada 5 (beş) nəfərdən ibarət Tiraj komissiyası yaradılacaq və uduş fondunun oynanılmasına azı bir iş günü qalmış Tiraj komisiyyasının üzvləri və həmin üzvləri əvəz edə biləcək daha 5 (beş) şəxs haqqında müvafiq məlumatı Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinə təqdim ediləcək. |